**Təlimat**

Hörmətli abituriyent, təsviri sənət üzrə qabiliyyət imtahanlarının nəticəsi ilə bağlı apellyasiya komissiyasına elektron ərizə ilə müraciətiniz üçün sizə təşəkkür edirik. Apellyasiya komissiyasına müraciət etməmişdən əvvəl siz imtahan nəticələriniz, qabiliyyət imtahanlarında iştirak etmək üçün qeydiyyatdan keçdiyiniz elektron səhifədə yerləşdirilmiş "tapşırıq çəkilmiş rəsm vərəqi"nin fotosurəti, yerinə yetirilən tapşırıq üzrə qiymətləndirmə meyarları və qiymətləndirmə şkalası ilə tanış olmalısınız.

Ötən imtahanların təcrübəsi göstərir ki, apellyasiya üçün ərizə yazanların əhəmiyyətli bir hissəsi qiymətin yenidən araşdırılması ilə bağlı komissiyaya müraciət etsələr də, ünsiyyət zamanı qiymətlərindən razı olduqlarını bildirir, komissiyadan bu və ya digər səbəblə əlaqədar onlara güzəşt etməyi xahiş edirlər. Abituriyentlərin nəzərinə çatdırırıq ki, bu tip müraciətlərə baxılmır. Elektron ərizədə müraciətin məzmunu qeyd olunmadığı halda ərizə qəbul edilmir, həmin müraciət araşdırılmır və onun üçün apellyasiya təşkil olunmur. Apellyasiya müzakirəsində abituriyentin iştirakı vacibdir. Abituriyent ilə yanaşı valideynlərindən biri müzakirədə iştirak edə bilər.

Sizin müraciətinizə "Zoom" proqramı və ya telefon əlaqəsi vasitəsilə baxılacaq. Bir abituriyentin müraciəti üzrə 10 dəqiqə müzakirə aparılması nəzərdə tutulmuşdur. Ayrılan vaxt bitdikdə, kənar şəxs müzakirəyə qoşulduqda və ya etik davranış qaydaları pozulduqda müzakirə prosesi dayandırılacaq. Abituriyentlərin görüşə təyin olunmuş vaxtdan 15 dəqiqə əvvəl qoşulması xahiş olunur. Görüşə qoşulmaqdan imtina edən abituriyentlər üçün ikinci dəfə komissiya yaradılması nəzərdə tutulmur. Qeyd edək ki, apellyasiya prosesinin qaydalara uyğun təşkilinə dair daxili nəzarəti həyata keçirmək məqsədilə abituriyentlərin komissiya üzvləri ilə görüşünün video yazısı aparılır.

**Rəsm imtahanı üzrə qiymətləndirmə meyarları (**gips baş**)**

| № | *Meyarlar* | *Maksimal bal* |
|---|---|---|
| **1** | **gips baş rəsminin verilmiş formata uyğun kağız üzərində yerləşdirilməsi** | **2** |
| a | gips baş rəsminin ölçülərinin kağızın formatına münasibətdə düzgün tapılmaması və kağız üzərində düzgün yerləşdirilməməsi | 0 |
| b | -gips baş rəsminin ölçülərinin kağızın formatına münasibətdə düzgün tapılması və kağız üzərində nisbətən düzgün yerləşdirilməsi<br>-gips baş rəsminin ölçülərinin kağızın formatına münasibətdə nisbətən düzgün tapılması və kağız üzərində düzgün yerləşdirilməsi | 1 |
| c | gips baş rəsminin ölçülərinin kağızın formatına münasibətdə düzgün tapılması və kağız üzərində düzgün yerləşdirilməsi | 2 |
| **2** | **gips baş rəsminin konstruktiv həlli** | **3** |
| a | rəsmdə konstruktiv həllin olmaması və nisbətlərin gözlənilməməsi | 0 |
| b | rəsmin konstruktiv həllinin və nisbətlərin qismən gözlənilməsi, həcmin düzgün tapılması | 1 |
| c | rəsmin konstruktiv həllinin və nisbətlərin əsasən gözlənilməsi, başın təsvir olunmuş hissə və detallarının nisbətlərinin verilmiş tapşırığa uyğun işlənilməsi | 2 |
| d | rəsmin konstruktiv həllinin və nisbətlərin modelin xarakterini tam ifadə etməsi | 3 |
| **3** | **gips baş rəsminin işıq-kölgə və plastik həlli** | **3** |
| a | rəsmdə işıq-kölgə həllinin verilməməsi, tonun əldə olunması üçün ştrixdən istifadə olunmaması, gips başın formasını verməyən nizamsız ştrixlərdən istifadə olunması | 0 |
| b | gips baş modelinin işıq-kölgə həllinin nisbətən dəqiq yerinə yetirilməsi, plastikanın qismən tapılması | 1 |
| c | gips baş modelinin işıq-kölgə həllinin formanı ifadə etməsi, plastik həllin nisbətən dəqiq yerinə yetirilməsi | 2 |
| d | rəsmdə işıq-kölgə və plastik həllin dəqiq verilməsi, ton dərəcələrinin keçidlərinin (yumşaq və ya kəskin), kölgələrin formalara uyğunluğu | 3 |
| **4** | **gips baş rəsminin tamamlanması** | **2** |
| a | gips baş rəsminin tamamlanmaması, rəsmin təsvir edilən başla oxşarlığının olmaması | 0 |
| b | gips baş rəsminin qismən tamamlanması, cizgilərin qənaətbəxş şəkildə yekunlaşdırılması, rəsmin təsvir edilən başla oxşarlığının olması | 1 |
| c | gips baş rəsminin düzgün tamamlanması, mərhələlərin doğru ardıcıllığının gözlənilməsi, rəsmin təsvir edilən başla tam oxşarlığının olması | 2 |